2 İyul Polis İşçilərinin Peşə Bayramı Günüdür

Azərbaycan polisi peşə andına sadiqdir

Vətənə, xalqa, dövlətə fədakarlıqla xidmət etmək missiyası şərəflə yerinə yetirilir

"Mən, polisdə xidmətə başlayan andan Azərbaycan Respublikasına və Azərbaycan xalqına sədaqətlə xidmət etməyə və daim sadiq qalmağa, Azərbaycan Respublikasının Konstitusiyasını və digər qanunlarını rəhbər tutmağa, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmağa, qanunçuluğa ciddi riayət etməyə, xidməti vəzifələrimi namusla və vicdanla yerinə yetirməyə, intizamlı olmağa, ictimai qaydanı və ictimai təhlükəsizliyi mərdlıklə qorumağa və lazım gələrsə, həyatımı belə əsirgəməməyə and içirəm". Hər bir polis əməkdaşı xidməti vəzifəsinin icrasına məhz bu andla başlayır. Bu andda müstəqil dövlətçiliyin dayaqlarından olan polis orqanlarının fəaliyyətinin əsas istiqamətləri, məram və məqsədləri yığcam ifadə edilib. Onun sıralarına qoşulan insanlar öz çətin, şərəfli vəzifələrini, lazım gələrsə, canları, qanları bahasına icra etməyə daim hazırdırlar.

Ulu öndər Heydər Əliyev polis orqanlarını mühüm dövlət atributlarından biri kimi səciyyələndirərək deyirdi: ***"Məlumdur ki, hər bir müstəqil dövlət bir neçə böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır".*** Təsadüfi deyildir ki, müdrik rəhbərimizin 1998-ci ildə imzaladığı Fərmanla müstəqil dövlətçilik tariximizdə müstəsna yeri olan **Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk polis orqanlarının yaradıldığı 2 iyul günü Azərbaycan Polisi Günü elan edilib. Əslində, bu, milli dövlətçilik ənənələrinə ehtiramın və tarixi irsə varisliyin bariz nümunəsi olmaqla, Azərbaycan polisinin indiki və gələcək mənsublarının çiyninə böyük mənəvi məsuliyyət qoyur, onlarda öz peşələri ilə bağlı qürur və fəxarət hissi doğurur.**

Xalq Cümhuriyyətinin ən mühüm vəzifələrindən biri ölkədə hüquq-mühafizə sisteminin yaradılması, asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi idi. Elə buna görə də birinci Nazirlər Kabinetinin sədri Fətəli xan Xoyski həm də daxili işlər naziri vəzifəsini öz üzərinə götürmüşdü. Bu nazirlik daxili sabitliyə nail olmaq və hüquq normalarını bərqərar etmək, cinayətkarlıqla mübarizə aparmaq, bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını qorumaqla yanaşı, milli ordu, təhlükəsizlik qüvvələri ilə birlikdə ərazi bütövlüyümüzə və suverenliyimizə qəsd etməyə çalışan təcavüzkar qüvvələrə qarşı mübarizənin də fəal iştirakçısı idi. Daxili İşlər Nazirliyinin ilk nizami polis dəstəsi 1918-ci ilin 2 iyulunda Gəncədə yaradıldı və həmin dövrdə də mürəkkəb tarixi şəraitdən istifadə edərək, separatçılığa cəhd göstərən erməni millətçilərinə qarşı kəskin mübarizəyə başladı. Cümhuriyyət polisinin qısa, amma şərəfli tarixində onun 1920-ci ilin aprelində Azərbaycana hərbi müdaxilə edən bolşevik qəsbkarlara qarşı əzmkar müqaviməti xüsusi yer tutur.

Xalq Cümhuriyyəti milli dövlət quruculuğunu başa çatdıra bilməsə də, yaratdığı dövlətçilik irsi və atributları onun süqutundan sonra da Azərbaycanın taleyində təsirli rol oynadı. Sovet hakimiyyəti dövründə məhdud çərçivədə olsa da, xalqımız öz dövlətçiliyini yaşatmaqla, bir sıra mühüm dövlət atributlarını əldə etdi ki, bunlardan biri sonralar müxtəlif adlar altında fəaliyyət göstərən daxili işlər orqanları idi. Xüsusən, daxili işlərdə öz vacib missiyasını yerinə yetirən Azərbaycan milisinin ictimai asayişin və qanunçuluğun qorunmasında qazandığı yüksək nəticələrin və zəngin təcrübənin tarixi baxımdan əhəmiyyəti çox böyükdür. Bolşevik ideologiyasının təsiri altında olan bu orqanların sovet repressiyalarında iştirakını, milli məfkurə daşıyıcılarına qarşı amansız münasibətilə bağlı faktları unutmadan deyə bilərik ki, İkinci Dünya müharibəsində azərbaycanlı milis əməkdaşlarından bir çoxu qəhrəmanlıqlar göstəriblər. Respublika daxili işlər - milis orqanlarının fəaliyyətində, xüsusən, 1970-1980-ci illər yeni bir mərhələ olub. Azərbaycana həmin dövrdə rəhbərlik edən ulu öndər Heydər Əliyev özünəməxsus müdriklik və uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati-ideoloji cəhətdən möhkəmlənməsinə, şəxsi heyətin mənəvi-əxlaqi keyfiyyətlərinin yüksəldilməsinə, peşəkar kadrların irəli çəkilməsinə böyük diqqət və qayğı göstərirdi. 2002-ci ildə Azərbaycan polisinin, Daxili İşlər Nazirliyi işçilərinin peşə bayramı, Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibətilə keçirilən mərasimdə ulu öndər Heydər Əliyevin bu orqanların sovet dövründəki fəaliyyəti ilə bağlı söylədiyi fikirlər öz aktuallığını daim saxlayacaqdır: ***"Sizin bir çoxunuz ölkəmiz dövlət müstəqilliyini əldə edənə qədər Azərbaycanda, Sovetlər İttifaqının daxili işlər orqanlarında işləyibsiniz, faydalı işlər görübsünüz, xalqımıza xidmət etmisiniz, böyük peşəyə sahib olubsunuz. Ancaq bugünkü günümüzün o dövrdən fərqi ondan ibarətdir ki, biz bu gün müstəqilik, biz bu gün azadıq. Biz heç bir mərkəzdən asılı deyilik. Heç bir dövlətdən asılı deyilik. Özümüz öz taleyimizin sahibiyik. Əgər polisin 84 illik yubileyini bir balaca dərindən təhlil etsəniz, görərsiniz ki, polis olub, xalqına xidmət edibdir. Amma polis milli olmayıbdır. İndi Azərbaycan polisi Azərbaycan övladlarının polisidir, milli polisdir. Bununla fəxr etmək lazımdır".***

Ölkəmizdə dövlət müstəqilliyinin bərpası ərəfəsində daxili işlər orqanlarının şəxsi heyəti milli ideyalara sadiqlik, xalqımızın başı üzərini alan təhlükələrə, xüsusən, erməni separatizminə qarşı mübarizədə sayıqlıq və fədakarlıq göstərirdilər. 1988-ci ildən başlayaraq, Ermənistanın hərbi təcavüzünə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan və uzun müddət rəşadətlə döyüşən yeganə silahlı qüvvə məhz polis, sonralar isə Daxili Qoşun Hissələri olub. Həmin döyüşlərdə DİN-in 1695 əməkdaşı və hərbi qulluqçusu şəhid olub, 1710-u yaralanıb. Müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən isə 99 əməkdaş həyatını itirib, 2640 nəfər xəsarət alıb. Göstərdikləri fədakarlığa görə daxili işlər orqanlarının 67 əməkdaşına Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilib, 1143 nəfər müxtəlif orden və medallarla təltif olunub. Xalqımızın öz övladı olan milli polisimizi şərəfləndirən bu faktları qürur hissi ilə qeyd edirik.

Bununla belə, müstəqilliyin bərpasından sonrakı ilk illərdə respublikanın rəhbərliyindəki milli mənafeləri qoruya bilməyən, dövlət idarəçiliyindən xəbərsiz, naşı və səriştəsiz şəxslərin yarıtmaz fəaliyyətinin daxili işlər orqanlarının işində neqativ hallara, cəmiyyətdə cinayətkarlığın artmasına, hüquq qaydalarına hörmətsizliyin geniş yayılmasına şərait yaratması da tarixi gerçəklikdir. Yalnız ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə gəlişindən və qətiyyətli dövlət idarəçiliyi mexanizmlərinin tətbiqindən sonra daxili işlər, polis orqanlarının öz həqiqi missiyalarını yerinə yetirməsi, peşə fəaliyyətini layiqincə həyata keçirməsi üçün möhkəm zəmin yarandı, qısa müddətdə ölkədə ictimai asayiş və qanunçuluğun qorunması təmin edildi. Bu yazıda o illərdə görülən işlərin geniş təhlilini aparmaq, təbii ki, mümkünsüzdür. Yalnız bir müddəanı qeyd edə bilərik ki, ulu öndərin müstəqil dövlətimizə rəhbərlik etdiyi on ildə Azərbaycan polisi yetkin, mübariz hüquq-mühafizə orqanı kimi formalaşdı.

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən on yeddi ildən artıq bir müddətdə polisin fəaliyyətində yeniləşmə, müasirləşmə, mənəvi saflaşma prosesi davamlı xarakter alıb, kadr potensialı və maddi-texniki bazası möhkəmləndirilib, peşəkarlıq səviyyəsi yüksəldilib, şəxsi heyətin sosial müdafiəsi daha da gücləndirilib. Son illərdə isə Daxili İşlər Nazirliyinin rəhbərliyinin cavanlaşdırılması, mövcud səmərəli idarəçilik ənənələrinin daha da təkmilləşdirilməsi və innovativ dəyişikliklərin aparılması yeni uğurlar, nailiyyətlər üçün zəmin yaradıb. Bir faktı mütləq vurğulamaq lazımdır: Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətliliyə dair ötənilki hesabatında göstərilir ki, son üç ildə Azərbaycan "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə 45 pillə irəliləyərək 141 ölkə arasında 30-cu yeri tutub. Bu, ölkəmizdə ictimai asayişin qorunmasında Azərbaycan polisinin öz missiyasını etibarlı şəkildə yerinə yetirdiyini bir daha təsdiqləyir.

Bu gün ölkəmizdə cinayətkarlıqla mübarizə, ictimai asayişin və təhlükəsizliyin təmini üzrə vəzifələr daxili işlər orqanları tərəfindən uğurla icra edilir, vətəndaşların qanuni mənafeləri etibarlı şəkildə qorunur, kriminogen vəziyyət nəzarətdə saxlanılır. Əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayına görə (257) hazırda ölkəmiz postsovet və hətta Şərqi Avropa məkanında öncül yerlərdən birini tutur.

Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin məlumatına əsasən, ötən il əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyektləri üzrə 26004 cinayət qeydə alınıb ki, bu da əvvəlki illə müqayisədə 668 fakt və ya 2,5 faiz azdır. Məlumatda bildirilir ki, ötən il qeydə alınmış cinayətlərin 24566-sı və ya 94,5 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən ibtidai araşdırılması aparılan hüquqazidd əməllər olub. Bu hüquqpozmaların 86,7 faizi (6853 fakt) böyük ictimai təhlükə törətməyən və az ağır (14450 fakt), 13,3 faizi (3263 fakt) ağır və xüsusilə ağır cinayətlərdir. Ötən il şəxsiyyət əleyhinə 5613, iqtisadi sahə üzrə 712, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə 8414, dövlət hakimiyyəti əleyhinə 732 cinayət qeydə alınıb. Əvvəlki illə müqayisədə həmin cinayət növləri üzrə dinamikada azalma müşahidə olunub. Belə dinamika xuliqanlıq, qaçaqmalçılıq, quldurluq, oğurluq, avtonəqliyyatın qaçırılması, soyğunçuluq, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, dələduzluq, qəsdən sağlamlığa ağır zərər vurulması cinayətləri üçün də səciyyəvidir. Cinayətlərin açılma faizi də, həmişəki kimi, yüksək olub, qeyri-aşkar şəraitdə baş vermiş ağır və xüsusilə ağır cinayətlərin 84,1 faizinin açılması təmin edilib. Bağlı qalan cinayətlərin yalnız 10 faizi ağır və xüsusilə ağır cinayətlərdir. Məlumatda mütəşəkkil cinayətkarlığa qarşı mübarizə istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2237 şəxsi birləşdirən 882 cinayətkar qrupun zərərsizləşdirildiyi, cinayət təqibi nəticəsində ötən il 12799 şəxsin məsuliyyətə cəlb edildiyi bildirilir. Həmin şəxslərin 7906-sı işləməyən və oxumayanlar, 2668-i əvvəllər məhkum edilənlər, 554-ü qadınlar, 320-si yetkinlik yaşına çatmayanlardır. Kriminal statistikaya dair daha geniş məlumat Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsində *(https://mia.gov.az)* yerləşdirilib.

Bu gün Bakı dünyanın ən təhlükəsiz şəhərlərindən hesab edilir. Üç milyona yaxın əhalisi olan paytaxtımızda ictimai asayişə nəzarətin fasiləsizliyi "Təhlükəsiz şəhər" sistemi vasitəsilə təmin olunur. Yol hərəkəti qaydalarına riayət olunmasına texniki nəzarət vasitələrinin tətbiqi genişləndirilib, yeni kameralar quraşdırılıb və müvafiq texniki vasitələrin sayı ötən il 13365 minə çatdırılıb. Əvvəlki illərdə olduğu kimi, ötən ildə də paytaxt polisi tərəfindən cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması sahəsində müsbət nəticələr əldə edilib. Respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirlərdə, o cümlədən koronavirus (COVİD-19) pandemiyası ilə bağlı ictimai asayişin və ictimai təhlükəsizliyin təmini sahəsində vəzifələr layiqincə yerinə yetirilir.

Azərbaycan polisi özünün 103-cü ildönümünü Qarabağda möhtəşəm qələbəmizin sevinci və qüruru ilə qarşılayır. Daxili İşlər Nazirliyi, onun mühüm strukturlarından olan Daxili Qoşunlar erməni faşizminə qarşı mübarizədə də fəal iştirak edib, düşmənə sarsıdıcı zərbə vurulmasına öz töhfələrini veriblər. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi və sərkərdəlik məharəti ilə rəşadətli silahlı qüvvələrimizin həyata keçirdiyi "Dəmir yumruq" əkshəmlə əməliyyatında - 44 günlük Vətən müharibəsində Daxili Qoşun hissələri hünər və qəhrəmanlıq nümunələri göstəriblər. Torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda döyüşlərdə Daxili Qoşunların 66 hərbçisi şəhid olub, 346 nəfər isə yaralanıb. Dövlətimizin başçısı bu strukturun 1377 hərbi qulluqçunu yüksək dövlət təltiflərinə, 4 nəfər isə "Vətən müharibəsi qəhrəmanı" adına layiq görüb. Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edən hərbi qulluqçulardan biri kimi igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Zəfər" ordeni ilə təltif edilib.

İstər Vətən müharibəsi dövründə arxa cəbhədə asayişin və təhlükəsizliyin təminində, istərsə də möhtəşəm hərbi-siyasi zəfərimizdən sonra işğaldan azad edilmiş ərazilərdə mühafizənin təşkili üzrə xidmətlərin aparılmasında daxili işlər orqanlarının, polisin üzərinə mühüm vəzifələr düşüb və bu vəzifələr layiqincə yerinə yetirilir. İşğaldan azad edilmiş rayonlarımızda fəaliyyəti ilk bərpa olunan dövlət orqanları məhz polis şöbələridir. Polis əməkdaşları həm cinayətkarlığa, hüquqazidd əməllərə qarşı mübarizə aparır, həm də komendant funksiyalarını yerinə yetirirlər.

Son ilyarıma yaxın müddətdə isə daxili işlər orqanlarının fəaliyyət istiqamətlərinə qlobal pandemiyaya qarşı mübarizədə də ön mövqelərdə olmaq daxil edilib. Koronavirus infeksiyası ilə bağlı tətbiq edilən karantin rejimi qaydalarına əməl edilməsinə nəzarət polis orqanları tərəfindən həyata keçirilir. Əminliklə deyə bilərik ki, vətənpərvər polislərimiz əhalinin sağlamlığının qorunması naminə onlara həvalə edilmiş bu vəzifənin də öhdəsindən bacarıqla gəlirlər. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva ötən il polis işçilərini peşə bayramları münasibətilə öz rəsmi "İnstagram" səhifəsində təbrik edərkən yazmışdı: ***"Bütün polis əməkdaşlarını peşə bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bu çətin günlərdə biz hamımız sizin vətəndaşlarımızın sağlamlığı naminə atdığınız qətiyyətli addımların, yüksək vətəndaş məsuliyyətinizin və peşəkarlığınızın şahidi olduq! Hər birinizə və doğmalarınıza möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram".***

Azərbaycan polisinin etibarlı və fədakar fəaliyyəti dövlətimizin, cəmiyyətimizin, hər bir vətəndaşımızın təhlükəsizliyi, əmin-amanlığı üçün mühüm və vacib təminatlardandır. İnamla deyə bilərik ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətimizin bugünü və gələcəyi üçün müəyyənləşdirdiyi davamlı inkişaf və zəfər strategiyasının uğurla həyata keçirilməsində polislərimiz daim yüksək fədakarlıqla, əzmlə, hünərlə iştirak edəcəklər.

Möhtərəm RƏCƏBOVA,
"Respublika".

Azərbaycan polisinin obrazı. Bu obrazı hansı cizgilər səciyyələndirir?

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə ilk polis orqanlarının yaradıldığı gün - 2 iyul ümummilli lider Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə Azərbaycan Polisi Günü elan edilib. Publisist Səyyad Ağbabalı AZƏRTAC-a təqdim etdiyi yazıda 103 yaşlı Azərbaycan polisinin tarixinin müxtəlif dönəmlərində formalaşan obrazı ilə bağlı bəzi qənaətlərini bölüşür.

Azərbaycan hansı tarixi mərhələlərdən, dolanbaclardan keçib, hansı təlatümlü və fırtınalı zamanları yaşayıb, yaxud hansı uğurlara imza atıbsa, polis də eyni taleyi yaşayıb. Cəmiyyətlə birlikdə həmahəng nəfəs alaraq, onun ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərib.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlament qarşısında hesabatçı olan DİN-ə təxminən 20 ay ərzində, qısa zaman kəsikləri ilə 6 nəfər rəhbərlik edib. O, demokratiyanın ab-havasını "ciyərlərini tam çəkməmiş" Xalq Cümhuriyyəti ilə birlikdə sovet-bolşevik rejimi tərəfindən məhv edilib. Cümhuriyyət dövrünün polis obrazında bolşevik-daşnak cinayətkar qruplarına qarşı, xüsusilə Bakı, Zəngəzur, Şuşa, Gəncə bölgələrində Azərbaycan ordusu ilə çiyin-çiyinə şərəflə mübarizə aparmaq xətti daha qabarıq görünür.

Zəngin təbii sərvətlərinə, geostrateji mövqeyinə görə Azərbaycan sovet rəhbərliyi üçün xüsusi maraq kəsb edirdi. Ona görə də sovet-bolşevik rejimi qurulduqdan sonra xeyli müddət ölkəmizə qeyri millətin nümayəndələrinin, o cümlədən də qatı daşnak erməni Mirzoyanın (1926-1929-cu illər) rəhbərlik etməsi çox ağır nəticələr verib. Hüquq-mühafizə orqanlarına, o cümlədən də Azərbaycan polisinin rəhbər heyətinə daraşmış bolşevik-daşnak cinayətkarlar vasitəsi ilə DİN və onun strukturları tamamilə deqradasiyaya uğradılıb. Azərbaycan xalqının düşmənləri fürsətdən yararlanmaqla, sovet rejiminin mahiyyətindən çıxış edərək açıq formada düşmənçilik fəaliyyətlərini davam etdiriblər. Azərbaycan polisi də, digər hüquq-mühafizə orqanları ilə yanaşı, sovet repressiya maşının hərəkətverici qüvvələrindən biri kimi sinfi mübarizəyə cəlb edilib. Sovet-bolşevik rejiminin özünün düzüb qoşduğu və "xalq düşmənləri" adlandırdığı xalqın görkəmli nümayəndələrinə, ziyalılarına, elm və din xadimlərinə qarşı xalqın övladlarını qabağa veriblər. 1920-1940-cı illərdə Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə 500-ə yaxın əməkdaşını itirib. 1937-1939-cu illərdə isə polisin yalnız rəhbər heyətindən 320 nəfər repressiyaya məruz qalıb. Həmin zamanlarda Azərbaycan polisinə zorən həm repressiyalarda iştirak edən, həm də özü repressiyaya məruz qalan bir obraz qazandırılıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan polisinin 80 illik yubileyində çıxış edərkən həmin tarixi dövrü belə səciyyələndirib: "Ötən dövrdə Azərbaycan polisinin, milisinin, daxili işlər orqanlarının çox əhəmiyyətli nailiyyətləri də, itkiləri də, uğurları da, səhvləri də olmuşdur. Bu tarixin çox parlaq səhifələri də, ancaq ləkəli qara səhifələri də var. Amma bunların hamısı bizimdir, Azərbaycanındır, xalqındır. Bu, bizim xalqın tarixinin səhifələridir. Daxili işlər orqanlarında nə qədər mənfi hallar olmuşdusa da, bu orqanda çalışan şəxsi heyətin əksəriyyəti öz mənliyini qorumuş, vətənə, xalqa sədaqətini daim saxlamışdır".

1969-cu ilin iyulunda Böyük Öndərin Azərbaycana rəhbər seçilməsi ilə ölkə həyatının bütün sahələri köklü islahatlar başlandı. Həmin illərdə Sovetlər Birliyi tərəfindən respublikamıza qarşı ayrı-seçkilik siyasəti yürüdülsə də, Ümummilli Lider Azərbaycanın gələcəyi üçün ən qlobal problemləri məharətlə həll edə bildi. Ölkənin strateji maraqları naminə çox ciddi addımlar atıldı. "Ədalətsizliyi ədalətsizliklə aradan qaldırmaq olmaz" prinsipini bəyan edən ölkə rəhbəri Heydər Əliyev DİN rəhbərliyində yaranmış dözülməz vəziyyəti aradan qaldırmaq üçün radikal tədbirlər həyata keçirdi. Cinayətkarlığa qarşı səmərəli mübarizəni gücləndirmək üçün daxili işlər orqanlarında kadrların seçilib yerləşdirilməsi və tərbiyə olunması işini dahi rəhbər öz üzərinə götürdü. Bununla da polisin obrazına vurulmuş qara ləkələr aktiv şəkildə təmizlənməyə başladı.

1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü bütün ölkə, o cümlədən daxili işlər orqanları üçün də ağır bir imtahan dövrü oldu. Dağlıq Qarabağda erməni separatizmi baş qaldırdığı ilk gündən Azərbaycan polisi SSRİ rəhbərliyi tərəfindən dəstəklənən erməni-daşnak-separatçı qüvvələrə qarşı mübarizənin ön cərgəsində dayandı. Xalqın ümid və pənah yeri polis oldu. 1991-ci ildə keçirilən uğurlu Çaykənd əməliyyatı Azərbaycan polisinin Xüsusi Təyinatlılarının adını tarixə yazdı. Birinci Qarabağ müharibəsində polisimiz öz sıralarından 500 nəfərdən çox şəhid verdi. Onun 5000-ə yaxın əməkdaşı yaralandı, 65 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Həmin illər polisin obrazında igidlik, vətənsevərlik, qorxmazlıq kimi cizgilərlə yadda qaldı.

Azərbaycan öz müstəqilliyini bərpa edəndən Ulu Öndərin hakimiyyətə qayıdışına qədər olan dövr daxili işlər orqanlarının fəaliyyətinin tamamilə siyasiləşdirilməsi və konyuktur maraqlara tabe etdirilməsi ilə səciyyələnir. Həmin illərdə qanunsuz silahlı birləşmələr meydan sulayır, cinayətkarlıq, xüsusən mütəşəkkil cinayətkarlıq özünün apogeyinə çatırdı. DİN və onun strukturları demək olar ki, iflic edilmişdi. Prezident İlham Əliyev həmin dövrü belə xarakterizə edib: "Əfsuslar olsun ki, müstəqillik bərpa olunduqdan sonra polis orqanlarında vəziyyət ürəkaçan deyildi. Məhz o illərdə ən böyük cinayətləri törədən insanlar polis orqanlarının rəhbər işçiləri, Daxili İşlər Nazirliyinin rəhbərləri idilər".

Ümummilli Liderin hakimiyyətə qayıdışı ölkənin müstəqilliyini itirmək təhlükəsinin qarşısını aldı. O, yaxşı bilirdi ki, respublikada möhkəm ictimai-siyasi sabitliyi bərpa etmədən heç bir müvəffəqiyyətdən danışmaq olmaz. Bu məsələnin həllində isə daxili işlər orqanlarının rolu əvəzolunmazdır. Liderin birbaşa rəhbərliyi ilə DİN və onun strukturlarında aparılan köklü islahatlar polisin yeni obrazını yaratdı. "Qorxu və xof orqanı" kimi yaramaz adı üstündən atan Azərbaycan polisi demokratik dövlət quruculuğu prinsiplərinə uyğun bilik və bacarıq potensialı əldə etdi. Dünya təcrübəsindən də bəhrələnərək mütəşəkkil bir quruma çevrildi. O, XXI əsrin polisi adını ləyaqətlə daşımağa başladı. Konstitusiya və qanunlarla üzərinə qoyulan vəzifələri yerinə yetirməklə ölkədə dayanıqlı sabitliyin və təhlükəsizliyin əsas təminatçısına çevrildi. Azərbaycan polisinə yaraşan da elə bu idi.

Zaman dəyişir. Dəyişən zaman yeni çağırışlar diktə edir ki, onlara vaxtında ölçülü-biçili siyasət və əməli fəaliyyətlə cavab vermədən gələcəyə inamla addımlamaq olmaz. Məhz buna görə də 2003-cü ildə cənab İlham Əliyev hakimiyyətə gəlişi ilə dövlətçiliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı qorunması, sabitliyin tam bərqərar olması istiqamətində ölkə həyatının bütün sahələrini əhatə edən islahatların ikinci mərhələsinə start verdi. Dövlət başçısının fəaliyyət prinsipi belə oldu: yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə bütün məsələləri, o cümlədən də ölkənin ərazi bütövlüyü və suverenliyini təmin etmək olar. Təkcə ölkə vətəndaşları deyil, bütün dünya Azərbaycana rəhbərliyin İlham Əliyev modelinin nəyə qadir olduğunu tam aydınlığı ilə gördü. 44 gün davam edən İkinci Qarabağ müharibəsində ölkəmizin parlaq qələbəsi 30 illik məğlubiyyətin acısını unutdurdu. "Qalib sərkərdə", "qalib xalq", "qalib əsgər" ifadələri hər azərbaycanlının sinəsini qürurla doldurdu - bütün ağrılara və acılara, Vətən yolunda verilən şəhidlərə, ağır xəsarətlər almış qazilərimizin acılarına baxmayaraq.

Vətən müharibəsində müzəffər Ali Baş Komandanın rəhbərliyi, qəhrəman Azərbaycan əsgərinin şücaəti ilə əldə olunan şanlı qələbədə, sözsüz, daxili işlər orqanlarının və DİN-in Daxili Qoşunlarının da xüsusi payı var. Bu qoşunlar öz sıralarından 66 şəhid vermiş, 346 əməkdaş isə yaralanmış və əlil olmuşdur. İkinci Qarabağ savaşında Daxili Qoşunlar da daxil olmaqla, DİN və onun strukturlarının xeyli sayda əməkdaşı göstərdikləri rəşadətə və qəhrəmanlığa görə orden və medallarla təltif olunmuşlar. Biz sizlərlə birlikdə indi daxili işlər orqanları əməkdaşlarının yeni obrazını, bu obrazda əvvəllər təsəvvürümüzə gətirə bilmədiyimiz yeni cizgiləri görürük. Bu cizgilərdə "Vətən oğlu"- ifadəsi aydınca görünür və oxunur. Ona görə də hər bir vicdanlı Azərbaycan vətəndaşı "mənim polisim" müraciətini sevə-sevə və qürurla səsləndirir.

Yəqin ki, çoxlarınız Daxili Qoşunların əsgər və zabitlərinin cəbhədə şəhid olan silahdaşlarının dünyaya yeni gələn körpələrinin xəstəxanalardan çıxarılması mərasimini müşahidə etmiş, yaxud həmin mərasimin iştirakçısı olmusunuz. Azərbaycan bayrağına bələnmiş körpəni öz övladı kimi köksünə sıxaraq onun atasının döyüş yolundan, qəhrəmanlığından danışan zabitin kövrək, lakin qürurverici çıxışını da dinləmisiniz. Polis əməkdaşlarının müşayiəti ilə doğma ocağına qədəm qoyan körpənin arxasında dövlətin dayandığı açıq-aşkar görünür və hiss olunur. Azərbaycan polisi də hər bir şəhid övladının bir addımlığında boy göstərir, qazilərin səfində yer alır. Budur müasir Azərbaycan polisinin obrazını bəzəyən portret cizgiləri.

İndi Azərbaycan polisi deyəndə öz kökündən və həyatın real axarından ayrı düşməyən, cəmiyyətə açıq olan, yeni çağırışlara ölkənin milli maraqları baxımından sərrast cavab verən bir struktur görürük. Bu struktur həm də Avropa polis məkanına daxil olan, onun təcrübəsindən bəhrələnən və öz təcrübəsini də bölüşən böyük bir gücdür. Azərbaycan polisi öz işini vətəndaşların hüquq və azadlıqlarının qorunması, onların tam təmin olunması istiqamətində ümumdövlət vəzifələrinin həyata keçirilməsi əsasları üzərində qurur. Lakin bir çox hallarda Azərbaycan polisinin belə fəaliyyəti ikili standartlar müəlliflərinin, respublikamızın inkişafını, müstəqilliyini və suverenliyini gözü götürməyənlərin, təcavüzkarla təcavüzə məruz qalanın yerini bilərəkdən səhv salanların, həm də daxildəki səbatsız ünsürlərin xoşuna gəlmir. Günəş kimi görünən odur ki, Azərbaycan polisinin obrazına "demokratiya püskürməkdən bıqmış və boğulmuş" ölkələrin polislərinin rezin gülələrlə göz çıxarmaq, dəyənəklərlə qol-qıç sındırmaq, çəkməsini qırtlağa basıb insanları boğmaq, dərisinin rənginə və dini mənsubiyyətinə görə cəza müəyyənləşdirmək kimi yaramazdan-yaramaz olan cizgilər tamamilə yaddır.

Azərbaycan polisi öz fəaliyyətini kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, Azərbaycan Konstitusiyası və qanunları əsasında, onun fəaliyyətini nizamlayan normativ aktlarla həyata keçirir. Azərbaycan dövlətinə və dövlətçiliyinə, milli maraqlara xidmət edir. Ölkəmizin demokratik və bəşəri dəyərlərə söykənərək inkişafını təmin edən Müzəffər Ali Baş Komandanının müəyyənləşdirdiyi dövlətçilik xəttinə sədaqət nümunəsi göstərir.

DİN və onun strukturları da, obrazlı dillə desək, "şəffaf evdə yaşayır, işləyir və daim müşahidə olunurlar". Şəksiz, daxili işlər orqanları hər hansı tədbir keçirəndə, yaxud DİN hansısa qərar qəbul edəndə kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, qanunlardan çıxış edir. Lakin onlar qərar qəbul edərkən, sosial kontekstə əhəmiyyət verməyə bilməzlər. Hüquq və onu formalaşdıran cəmiyyət arasında hər zaman bir balans olmalıdır. Azərbaycan polisi öz obrazında bu balansı qarşılıqlı etibar, səmimiyyət, qanunlara hörmət və humanizm prinsipləri əsasında qoruyub saxladığını aydın cizgilərlə göstərir. Onun obrazına cinayətkarlığa qarşı barışmaz mübarizə aparmaqla humanizm prinsiplərini görünən formada nümayiş etdirmək, hərbi anda sadiq olmaq, vətəndaş məmnunluğu üçün şəffaf formada fəaliyyət göstərmək cizgiləri xarakterikdir.

Mən iddia etmirəm ki, Azərbaycan polisinin fəaliyyəti nöqsansızdır və işlər yağ kimi gedir. Bəli, nöqsanlar var və olacaq. Fakt odur ki, mövcud nöqsanları operativ və görünən formada aradan qaldırmaq üçün DİN rəhbərliyi ən təsirli tədbirlər görür. Bu sahədə özünü tənzimləmə mexanizmi daim işlək və saz vəziyyətdə saxlanılır. Daxili işlər orqanları canlı bir orqanizmdir. Bu orqanizmin bəzi orqanlarına zaman-zaman "virus və bakteriyalar"ın düşməsi qaçılmazdır. Əsas olan onları vaxtında aşkar edib zərərsizləşdirməkdir ki, bu da edilir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması daxili işlər orqanlarının qarşısında bir çox yeni vəzifələr müəyyənləşdirir. DİN və onun strukturları bütün bu vəzifələri ona görə mükəmməl formada yerinə yetirə bilir ki, nazirliyin rəhbərliyi peşəkardır, bu strukturun fəaliyyəti "gənclərin qətiyyəti və novatorluğu, yaşlıların müdrikliyi və təcrübəsi" prinsipi əsasında qurulur. Vəzifələr dəqiq müəyyənləşdirilir, onların yerinə yetirilməsi üçün sədaqətli xidmət göstərilir.

Təbii, bugünkü sabitliyin, inkişafın, gələcəyə inamın təməlində Prezident İlham Əliyevin yürütdüyü siyasət durur. Eyni zamanda, bu siyasətin reallaşmasında xüsusi xidmətləri olan polis orqanlarının fəaliyyətini də gözardı etmək olmaz. Ali Baş Komandan deyir: "Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis orqanları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Mən görülmüş işləri yüksək qiymətləndirirəm. Polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm".

İndi Azərbaycan qatarı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə daha gözəl gələcəyə doğru istiqamət götürüb. Şübhəsiz, bu qatarın mənzil başına sağ-salamat çatması, təhlükəsizliyinin tam təmin olunması üçün Azərbaycan polisi onu fədakar və şərəfli xidmətlə, adına yaraşan formada müşayiət edəcəkdir.

103 yaşın mübarək, Azərbaycan Polisi!

AZƏRTAC